# Tanınmış alim, nəcib insan - Eldar Məmmədbəyli...

**AMEA Neft-kimya Prosesləri İnstitutunun laboratoriya rəhbəri, kimya elmləri doktoru, professor Məmmədbəyli Eldar Hüseynqulu oğlunu istedadlı kimyaçı alim kimi 30 ildən artıqdır ki, tanıyıram. Lakin onunla şəxsi tanışlığımız mənin AMEA-nın akademik M.Nağıyev adına Kataliz və Qeyri-üzvi Kimya İnstitutunda işləməyə başladığım 2014-cü ildə baş verib.**









Həmin dövrdə Eldar müəllimin bizim institutun əməkdaşları ilə sıx elmi əlaqələri var idi. O, professor Sərdar Zeynalovun rəhbərlik etdiyi laboratoriya ilə tərkibində halogen saxlayan norbornen sırası yeni efirlərin sintezi və polimerlərə əlavələr, plastifikator, SRB-yə qarşı bakterisid kimi xassələrinin öyrənilməsi sahəsində birgə elmi işlər aparırdı. Eldar müəllim eyni zamanda professor Gülməmməd Süleymanov və əməkdaşları ilə birlikdə ferrosen və simantrenin, birli, ikili və tsiklik karbinolların, onların bəzi amin törəmələrinin sintezi, xassələrinin öyrənilməsi sahəsində tədqiqat səmərəli tədqiqat işləri aparırdı. Bu tədqiqatlar nəticəsində sintez olunmuş birləşmələr bioloji aktiv maddələr, dizel yanacaqları üçün tüstüazaldıcı və benzin fraksiyasının demerkantanizasiya üçün komponent kimi sınaqdan keçirilib və yüksək nəticələr əldə olunub. Hazırda o, AMEA-nın müxbir üzvü Eldar Zeynalovun rəhbərlik etdiyi laboratoriya ilə birlikdə yeni bioloji aktiv maddələrin sintezi və xassələrinin öyrənilməsi sahəsində birgə tədqiqatlar aparır.

Mənim, prof. Eldar Məmmədbəylinin elmi nailiyyətləri və şəxsi keyfiyyətləri ilə daha yaxından tanış olmağımda Gəncə Dövlət Universitetində keçirilən ənənəvi "Müasir təbiət elmlərinin aktual problemləri" Beynəlxalq elmi konfransının böyük rolu olub. GDU-nin rektoru, mənim yaxın dostum və tələbə yoldaşım prof. Yusif Yusibovun təşkilatçılığı ilə ümummilli lider Heydər Əliyevin anadan olması münasibəti ilə hər il may ayının ilk on günlüyündə keçirilən bu konfrans Respublikamızın təbiət elmləri sahəsində çalışan tədqiqatçıların, o cümlədən kimyaçıların iştirak etdiyi və yüksək səviyyədə təşkil olunan mötəbər elmi tədbirlərdən biridir. Eldar müəllim, bir qayda olaraq, bu konfransa dəvət olunur və onun işində çox fəal iştirak edir. Kimya bölməsinin iclaslarında onun təqdim etdiyi məruzələrinin mövzusu həmişə aktual, müasir və diqqətçəkən olur. Bu məruzələrdə o, yeni yüksək təsirə malik bioloji aktiv maddələrin sintezi, asimmetrik sintez, Azərbaycanın yeni quru və dəniz yataqları neftlərinin optiki aktivliyinin tədqiqi və s. sahələrdə apardığı tədqiqatların nəticələrini təqdim edir, çıxışları həmişə maraqlı və canlı olur. Elmi çıxışlardan başqa Eldar müəllim konfransın mədəni tədbirlərində də fəal iştirak edir və bu, iştirakçılar tərəfindən rəğbətlə qarşılanır.

Ümumiyyətlə, Eldar müəllim Respublikamızda və xaricdə keçirilən bir çox nüfuzlu elmi konfranslarda neft kimyasına, üzvi kimyaya dair maraqlı məruzələrlə çıxış etmişdir.

Bunlardan əlavə mən prof.Eldar Məmmədbəylinin elmi işləri ilə AMEA Kimya Bölməsinin və "Kimya üzrə Koordinasiya Şurasının" iclaslarında da tanış olmuşam. Onun doktorant və dissertantlara təklif etdiyi elmi mövzular həmişə aktual olur və müasir çağırışlara cavab verir.

Eldar müəllim AMEA-nın Rusiya Elmlər Akademiyasının (REA) ilə əməkdaşlığında da fəal iştirak edir. O, 2005-ci ildə AMEA Neft-kimya Prosesləri İnstitutunun (NKPİ) REA-nın Elementüzvi Birləşmələr (EÜBİ) və Kimyəvi Fizika İnstitutları (KFİ) ilə bağladığı ikitərəfli elmi-texniki saziş və müqavilələrin koordinatoru və məsul icraçısı olub.

Bu Saziş və müqavilələrə əsasən həmin institutlarla asimmetrik sintez, neftlərin optiki aktivliyinin öyrənilməsi, sənaye bitkilərinin mikrokapsullaşdırılma üsulu ilə məhsuldarlığının artırılma sınaqları sahəsində birgə tədqiqat işləri aparılıb. Hazırda AMEA NKPİ-nin və REA EÜBİ-nin arasında 2018-ci ildə bağlanmış beşillik müqavilə əsasında prof.E.Məmmədbəylinin və prof. K.Koçetkovun rəhbərlik etdikləri laboratoriyaların əməkdaşları tərəfindən yeni yüksək təsirli bioloji aktiv birləşmələrin alınması və xassələrinin öyrənilməsi sahəsində birgə elmi işlər davam etdirilir. Aparılan tədqiqat işlərinin nəticələri nüfuzlu jurnallarda birgə məqalələrdə dərc edilir və konfranslarda məruzə edilir.

Qeyd etmək istəyirəm ki, professor E.Məmmədbəyli Respublikamızda asimmetrik sintez sahəsində sistemli şəkildə çalışan ilk azərbaycanlı alimdir. Onun REA EÜBİ-nin nəzdindəki İxtisaslaşmış Şurada müdafiə etdiyi namizədlik dissertasiyası və BDU-nun nəzdindəki Dissertasiya Şurasında müdafiə etdiyi doktorluq dissertasiyası bütövlükdə asimmetrik sintez problemlərinə həsr olunub. Hələ 1976-cı ildə o, NKPİ-nin Sumqayıt filialının (indiki Polimer Materialları İnstitutunun) direktoru, professor, Azərbaycan SSR EA-nın müxbir üzvi Mustafa Məhəmməd oğlu Hüseynovun rəhbərliyi ilə asimmetrik dien sintezinin prinsipcə yeni variantını təklif edib və xiral katalizatorun iştirakı ilə bu reaksiyanın aparılmasını həyata keçirib.

Sonrakı illərdə bu sahədə yapon (K.Kopa və b., 1979) və amerika (V.R. Rouşet və b., 1982) alimləri tərəfindən Eldar müəllimin bu işləri prioritet kimi qəbul və inkişaf etdirilib. Daha sonra bu işlərə dünyanın bir sıra aparıcı alimlərinin əsərlərində istinadlar edilib (Y.Mori, 1982; M.Noqradi, 1989; K.Narasaka, 1991; H.V. Kaqan, V.D. Riant, 1992 və s.).

REA-nın görkəmli kimyaçı alimləri: "Jurnal Opqaniçeskoy Ximii" jurnalının baş redaktoru, MDU-nun professoru, akademik İ.P. Beletskaya, uzun müddət EÜBİ-nin direktoru işləmiş akademik Y.N. Bubnov, KFİ-nin laboratoriya müdiri, professor R.Q .Kostyanovski və başqaları Eldar müəllimin elmi işlərinə yüksək qiymət veriblər.

Geniş intellektə, müasir dünyagörüşünə malik, yüksək ixtisaslı mütəxəssis olan prof.Eldar Məmmədbəyli üzvi kimya, neft kimyası, asimmetrik sintez, sulfatreduksiyaedici bakteriyalar əleyhinə antimikrob maddələrin sintezi və xassələrinin tədqiqi sahəsində özünəməxsus elmi istiqamət yarada bilib. Hazırda o, bu istiqamətdə fəal tədqiqatlarını uğurla, gənclik həvəsi ilə davam etdirir. Onun elmi fəaliyyətinin nəticələri 470-dən çox elmi əsərdə, o cümlədən 13 müəlliflik şəhadətnaməsində və patentdə öz əksini tapıb. Əsərlərinin böyük bir qismi nüfuzlu beynəlxalq jurnallada - "Jurnal Opqaniçeskoy Ximii", "Jurnal Obhey Ximii", "Jurnal Prikladnoy Ximii", "Neftiximə", "İzvestie AN SSR", "Jurnal analitiçeskoy ximii", "Kataliz v promışlennosti", "Tetrahedron", "Green Chemistry" və s. dərc edilib. Eldar müəllim, elmi əsərlərlə yanaşı, Respublika mətbuatında vaxtaşırı elmi-kütləvi məqalələrlə də çıxış edir.

Eldar müəllim yüksək ixtisaslı kimyaçı kadrların yetişdirilməsi sahəsində də səmərəli fəaliyyət göstərir. Onun elmi rəhbərliyi və məsləhətçiliyi ilə 6 fəlsəfə doktorluğu və 3 elmlər doktorluğu dissertasiya işi yerinə yetirilib və uğurla müdafiə edilib. O, həmçinin, bir çox dissertasiya işlərinin rəsmi opponenti olub.

Prof. Eldar Məmmədbəyli AMEA NKPİ-nin Elmi Şurasının, həmin institutun nəzdindəki Dissertasiya Şurasının, "Azərbaycan Əczaçılıq və Farmakoterapiya", "Neft-kimya prosesləri və neft emalı" jurnallarının redaksiya şurasının üzvüdür.

Bu yazıda mən Eldar müəllimi bir tədqiqatçı alim kimi təqdim etməyə çalışdım. Sonda onun bir insan kimi şəxsi keyfiyyətlərini də qeyd etməyi özümə borc bilirəm. O, olduqca sadə və təvazökar bir insandır, insanlarla asanlıqla ünsiyyət qura bilir. Bununla yanaşı, sözünü açıq deyə bilən xarakterli bir insandır. Vətənini, millətini, müstəqil dövlətimizi çox sevir, torpağa, elobaya ürəkdən bağlıdır. Elə bu səbəbdən poeziyanı, aşıq sənətini, sazı-sözü çox sevir. Onun bir çox məclislərdə qəlbəyatan çıxışları, əzbərdən dediyi şeirlər xoş qarşılanır. Dostların, tanışların tədbirlərində yaxından iştirak edir, çox maraqlı həmsöhbət və yaxşı yol yoldaşıdır. Gözü, könlü tox adamdır.

Eldar müəllimin yüksək keyfiyyətlərindən biri də onun soykökünə, ailəsinə ürəkdən bağlı bir insan olmasıdır.

Nobel mükafatı laureatı akademik Pyotr Kapista deyirdi ki, görkəmli alimin böyük insan olması mütləq deyil, amma böyük insan olmayan şəxs görkəmli müəllim ola bilməz. Eldar müəllimin tələbələri və yetirmələri ilə qurduğu mehriban və xoş ünsiyyət onun əsl müəllim olmasını göstərir.

Ömrünün 50 ildən çoxunu elmə həsr etmiş bu fədakar insan hazırda həyatının 80-ci ilini yaşayır. Yaxınlarda 2021-ci ilin yanvarının 22-də onun səksən yaşı tamam olur. Mən şəxsən öz adımdan və çoxsaylı dostları olan institutumuzun kollektivi adından Eldar müəllimi bu münasibətlə ürəkdən təbrik edir, ona can sağlığı, uzun sağlam ömür və bir gənclik eşqilə elmi fəaliyyətini davam etdirməyi arzulayıram.

***Məhəmməd BABANLI***
***AMEA nın Kataliz və Qeyri üzvi Kimya İnstitutunun direktor müavini kimya elmləri doktoru professor AMEA nın müxbir üzvü***